**2007-12-24 - 13:55:00**

**MƏNBƏ: «Media forum»**

## Hacıqabul-Kürdəmir avtomobil yolu açıldı

Dekabrın 24-də Bakı-Qazax avtomobil yolunun Hacıqabul-Kürdəmir hissəsinin açılış mərasimi olub. «Media forum» saytı AzərTAc-a istinadla xəbər verir ki, prezident İlham Əliyev də mərasimdə iştirak edib.

Azərbaycan hökumətinin, Avropa Yenidənqurma və İnkişaf Bankının maliyyələşdirdiyi yolun tikintisi üçün 2004-cü ilin dekabrında elan olunan müsabiqədə İtaliyanın «Todini konstrakşın» şirkəti və «Azərinşaatservis» MMC qalib gəlmişdi. Tikinti işlərinə 2005-ci ilin mayında başlanıb.

Böyük İpək yolunun bir hissəsini təşkil edən Hacıqabul-Kürdəmir yolunun uzunluğu 85 kilometrdir. Layihəyə bu yolun 75 kilometr olan hissəsinin yenidən qurulması, Kürdəmir rayonu ərazisində 10 kilometr uzunluğunda yeni yolun, eləcə də «Kürdəmir dairəvi» yolunun tikintisi daxil idi. Hazırda yolun yenidən qurulması tam başa çatdırılıb. Tikinti zamanı 1,73 milyon kubmetr torpaq işləri görülüb, 490 min ton asfalt döşənib.

Ümumi dəyəri 97,16 milyon ABŞ dolları olan layihə çərçivəsində Padar çayı üzərində iki körpü, 4 mal-qara keçidi tikilib, yerüstü suların axınını təmin edəcək 165 su borusu çəkilib. Yolun birinci dərəcəli hissəsi 5,7 kilometr, eni isə 27,5 metr, ikinci dərəcəli hissəsinin uzunluğu 78,2 kilometr, eni 15 metrdir.

Tikinti işlərində 623 nəfər yerli, 16 xarici mütəxəssis iştirak edib.

«Media forum»